**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

| | | | |
|---|---|---|---|
| **Haradan:** | SBRS | | |
| **İcra üçün:** | MİƏİ, MİHİ, MHSİ, MRTİ | | |
| **Məlumat üçün:** | MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərə, SVŞN, NBMT, NDNC, NAVŞ, NNAT | | |
| **Sənədin №** | SBRS/ 141 /17 | **Tarix:** | 27 /02/2017 |
| **Sənəd necə göndərilməsi:** | Elektron poçt | | |
| **Səhifələrin sayı:** | 3 vərəq | **Əlavə olunur:** | 1 vərəq |
| **Məhdudluğu qrifi:** | Xidməti istifadə üçün | | |
| **Təciliyi:** | Çox təcili | | |
| **Vacibliyi:** | Çox vacib | | |

**Məsələyə dair**: *Ermənistan Prezidenti Serj Sarqsyanın Brüsselə işçi səfəri və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla birgə mətbuat açıqlamasına dair*

Azərbaycan Respublikası
xarici işlər naziri
cənab Elmar Məmmədyarova

Hörmətli cənab Nazir,

Məlumat verdiyimiz kimi, Ermənistan Respublikasının Prezidenti Serj Sarqsyan Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Donald Tuskun dəvəti əsasında Brüsseldə işçi səfərdədir.

Cari ilin 27 fevral tarixində S.Sarqsyan ilk öncə Avropa Xalq Partiyasının (EPP) sədri Cozef Daul ilə görüşmüşdür (S.Sarqsyanın rəhbərlik etdiyi Ermənistan Respublikaçı Partiyası 2012-ci ildən EPP-nin müşahidəçi üzvüdür). Daha sonra isə D.Tusk ilə təkbətək görüş baş tutmuş və bunun ardınca Prezidentlər mətbuata birgə açıqlama vermişlər. Prezident D.Tusk Aİ-nin Ermənistanın müstəqilliyi, suverenliliyi və ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir. O, Aİ-Ermənistan Müfəssəl və Gücləndirilimiş Tərəfdaşlıq Sazişi üzrə danışıqların yekunlaşdığını elan etmişdir. Ermənistan Prezidenti ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələlərini müzakirə etdiyini bildirən **D.Tusk "status-quo"-nun davamsız olduğunu, münaqişənin beynəlxalq hüquq əsasında qısa vaxt ərzində siyasi həllinin zəruriliyini vurğulamış,** Aİ-nin ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçilik səyləri və təkliflərini dəstəklədiyini bildirmişdir.

S.Sarqsyan Aİ-Ermənistan Müfəssəl və Gücləndirilimiş Tərəfdaşlıq Sazişi üzrə danışıqların yekunlaşmasından məmnun olduğunu bildirmişdir. Çıxışında Aİ və Ermənistan arasında sektoral əməkdaşlıq məsələlərinə toxunaraq ölkəsinin Aİ-nin müxtəlif proqramları, o cümlədən kiçik və orta sahibkarlıq (COSME), elm-tədqiqat (Horizon 2020) layihələrində iştirak etdiyini, gələcəkdə Aİ-nin mədəniyyət proqramına (Creative Europe) daxil olacağını, Vahid Aviasiya Sazişi üzrə danışıqların yekunlaşacağını, Aİ ilə vizaların ləğvi sahəsində dialoqun başlanılacağına ümidvar olduğunu bildirmişdir. Ermənistan Prezidenti Aİ-nin ölkəsindəki islahatlara verdiyi maliyyə və texniki dəstəyin ikitərəfli əməkdaşlığın vacib komponenti olduğunu qeyd etmiş, məhz bu dəstək sayəsində ədliyyə, kənd təsərrüfatı, statistika, dövlət satınalmaları, peşə təhsili sahəsində inkişafa nail olduqlarını iddia etmişdir. O, Ermənistanda keçiriləcək parlament seçkilərinin ölkənin demokratik inkişafında növbəti mərhələ olacağını, Aİ-nin maliyyə dəstəyi sayəsində Ermənistanda yeni seçki məcəlləsinin qəbul edildiyini, xalqın seçkilərə inamının artacağına bildirmişdir. S.Sarqsyan seçkiləri izləmək məqsədlə mümkün qədər çoxlu sayda beynəlxalq müşahidəçiləri ölkəsinə dəvət edəcəyini söyləmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarbağ münaqişəsi ilə bağlı bildirmişdir ki, **münaqişənin hərbi yolla həlli yoxdur, Ermənistan məntiqli kompromisə hazırdır. Bununla belə, Dağlıq Qarabağ əhalisinin sərbəst şəkildə öz iradəsini nümayiş etdirməklə münaqişənin həlli yolunun tapılması vacibdir və "onun fikrincə" başqa həll yolu ola bilməz. Dağlıq Qarabağ əhalisinin öz müqəddaratını təyin etmə hüququ mühüm beynəlxalq sənədlərdə öz əksini tapmış və bu hüquq münaqişənin həlli üzrə təsis olunmuş yeganə beynəlxalq qurum – ATƏT-in Minsk Qrupu tərəfindən tanınmışdır. Bu sadəcə Ermənistanın deyil, həmçinin beynəlxalq ictimaiyyətin mövqeyidir.** S.Sarqsyan münaqişə ilə bağlı tutduğu tarazlı mövqeyə görə Aİ-yə təşəkkür etmişdir.

Sonda Ermənistan Prezidenti Aİ-nin qonşularla sivil münasibətlərə malik, keçmişdə baş vermiş problemlərin və tarixin öhdəsindən gəlməyi bacaran nümunəvi təşkilat olduğunu, bu cür münasibətlərə hər kəsin ehtiyacı olduğunu bildirmişdir.

Qeyd etmək istərdik ki, Prezident S.Sarqsyan çıxışını "Aİ qarşısında hesabat" mızmununda qurmuşdur. Heç bir Prezidentin açıqlamasında Aİ-nin Ermənistan vasitəsilə geniş regional əməkdaşlıq müstəvisinə çıxışına istinad olmamışdır.

Prezident D.Tuskdan sonra S.Sarqsyan NATO-nun baş katibi Jens Stoltenberqlə görüşmüşdür. Növbəti gün 28 fevral tarixində Ermənistan Prezidentinin Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini, Aİ-nin genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissar Yohhannes Han ilə birlikdə Avropa Komissiyasının

Prezidenti Jan-Klod Yunker, Avropa Parlamentinin Prezidenti Antonio Tayani ilə görüşləri nəzərdə tutulur. Görüşlərlə bağlı əlavə məlumat Mərkəzə təqdim olunacaqdır.

Nəzərə alınması və AR Prezident Administrasiyasının məlumatlandırılmasını xahiş edirik.

Hörmətlə,

**Müvəqqəti İşlər Vəkili: Zaur Əhmədov**

İcraçı: Anar Şükürov (3158)

European Council
The President

PRESS
EN

STATEMENTS AND REMARKS
91/17
27/02/2017

# Remarks by President Donald Tusk after his meeting with President of Armenia Serzh Sargsyan

I am pleased to welcome President Sargsyan to Brussels today.

Armenia whose independence, sovereignty and territorial integrity we support is an important partner for the European Union.

I am very pleased to announce today the conclusion of negotiations on the new EU-Armenia Comprehensive and Enhanced Partnership Agreement.

This new agreement will broaden the scope of our relations, taking into account the new global, political and economic interests we share and challenges we want to face together.

We are looking forward to stronger cooperation in sectors such as energy, transport and the environment, for new opportunities in trade and investments, and for increased mobility for the benefit of our citizens.

We have discussed today our shared values including our commitment to democracy, human rights, and the rule of law, which underpin the new agreement and our future cooperation.

The EU is already the first trade partner of Armenia, its first international donor and strongest supporter to reforms. We intend to expand these relations further in the coming years and have encouraged Armenia to continue reforms across a range of issues, including economic development, the business environment, the judiciary, human rights, the fight against corruption and measures to ensure free and fair elections.

We also discussed the peaceful resolution of the Nagorno-Karabakh conflict. The status quo is unsustainable. The conflict needs an early political settlement in accordance with international law. It does not have a military solution. The EU continues to fully support the mediation efforts and proposals of the OSCE Minsk Group Co-Chairs.

Mr President, thank you very much for coming to Brussels for your visit, for all your efforts and for our cooperation.

**Press office - General Secretariat of the Council**